# ONLARI YAXINDAN TANIYAQ




"Zəfər tarixi yazan XTQ əsgəri". 156 səhifəlik bir kitab. Eyni zamanda 40-dan çox oğulun adı, qısa hekayəsi.

Hekayə deyincə... Axı hər bir hekayənin müəllifi, onun yazarı olur? Bəs bu oğulların hekayəsini kim yazdı?! Əlbəttə ki, bu hekayələrin müəllifi şəhidlərin özüdür. Qəhrəmancasına döyüşüb adlarını qəlblərə əbədi yazdıran Vətən oğullarımız!

Bəli, hər bir Azərbaycan vətəndaşının döyünən ürəyində hal- hazırda döyünməyən ürək sahiblərinin adları vardır. Qanları ilə yazdıqları hekayələri yox, romanları vardır!

Ana oğul böyüdür
Gecə keşiyin çəkir,
Hər yuxusuz gecədə
Ona laylanı deyir:
"Layla beşiyim, layla
Evim- eşiyim, layla.
Sən get şirin yuxuya
Çəkim keşiyin layla!."

İllər keçir, böyüyür oğul... Onun həmişə ana qayğısına ehtiyacı, ananın isə hər gün xeyir-duası, əzizləməsi olur. Lakin ana bilməzdi ki, o laylanı illər sonra yenidən səsləndirəcək. Həm də gözlərini həmişəlik bağlayan oğula. Bilsəydi, illər öncəki zamanı uzatmaq üçün nələr, nələr etməzdi...

Əlin saata qoyub
Saxlardı o əqrəbi,
Öpüb gözünə qoyub
Seyr edərdi əlləri.

Bəli, heç nə ilə ölçüyə gələ bilməyən dəyərli igid oğulların əlləri... Məhz onların sayəsində torpaqlarımız indi azad nəfəs alır. Çünki həmin Vətən oğulları öz nəfəslərini işğal altında qalan torpaqlara verdilər. Axı həmin torpaqlar 30 ildən çox idi, azadlığa həsrət idi. Viran olmuş evlər, vaxtı ilə arzu-kam ilə yaşayan neçə-neçə torpaq sahiblərinin qəfil səssizliyi, illərlə həmin torpaqların yağı düşmən tərəfindən xarabalığa çevrilməsi... Bütün bunlar o torpaqlara böyük bir qəm-qüssə gətirmişdi. Hər bir Azərbaycan övladı o torpaqların azad olacağı ümidi ilə yaşayırdı.

Torpaq daşa dönmüş
Gül tikan olmuş
Daşın beli çökmüş
Gərəksiz olmuş

Valideynin övladından yaxşı mənada gözləntisi çox olur. Vətən yaralı ikən övlad böyüdən hər bir kəs gələcəyə böyük bir inamla yaşayırdı. Həsrət hopan südün balaya bütöv Vətən eşqini ötürəcəyini bilirdi. Böyük bir inam var idi. 30 ilin həsrəti... O illər ümidsizləşdirmədi. Əksinə, böyüyən oğulların ruhuna ruh verdi, qollarına güc verdi.

Torpaqdan pay olmaz,
Demiş böyüklər.
Sözə əməl etmiş
Bizim igidlər.

İşğal altında olan torpaqlar üçün böyüklərin çəkdiyi ah ilə böyümüş övladlar Vətən həsrətindən qocalan ana-atalar üçün gələcəyə olan böyük ümidlər idi. Və belə də oldu...

Daşı daş üstündə qoymayan düşmənlər əslində, Azərbaycan ordusunun gücünə bələd idi. İşğal altında olan torpaqların baxımsız vəziyyətdə olması da bununla əlaqədar idi. Demək ki, torpaqları işğal altında saxladıqları müddətdə əslində, özləri də şüur altında bu torpaqların nə vaxtsa öz sahiblərində olacağını gözləyirdilər. Lakin yaranmış bu gücü təsəvvür edə bilməzdilər. Nəhayət o an gəldi... Hamının gözlədiyi an...Torpaqların tam azad edildiyi xəbərinin eşidilməsi...

Dünya mərdin namərd üzərindəki qələbəsinin şahidi oldu. Azərbaycan oğulları qəhrəmancasına döyüşərək eşidib lakin görmədikləri o torpağa ayaqbasma haqlarını əldə etdilər. Zəncirləri qıra-qıra, tikanları yara-yara o torpaqlara yetişdilər. Canlarını tapşıraraq həmin yerlərə yeni nəfəs verdilər.



Deyib igid anası,
Anadır Vətən,
Bölmüş onun balası
Sevgisini tən.

"Vətən anamızdır"- deyib döyüşən, şəhid olan əsgərlərimiz tarix yazıb gedəsi olsalar da onları heç kəs unutmadı. "Zəfər tarixi yazan XTQ əsgəri" belə igidlərin 40-dan çoxunu daha yaxından tanıtmaq üçün yazılmış kitablardandır. XTQ deyincə, yada düşən əzmkarlıq, qəhrəmanlıq, sədaqət və nəticə olaraq qələbə olur. 44 günlük müharibənin nəticəsi kimi.

Kitabda XTQ əsgəri şəhid Əhməd Laçınovun həyat yolu, eyni zamanda onun ailə üzvləri, dostları və döyüş yoldaşlarının onunla bağlı xatirələri qələmə alınıb. Burada şəhid Əhməd Laçınovla yanaşı Zaqataladan olan digər şəhidlərin həyatı ilə də qısa şəkildə tanış olmaq mümkündür.

Şəhidlərdən - Əhməd Laçınov, Asəf Ağayev, Vüsal Ramazanov, Fərid Məmmədzadə, Fəqan Məmmədov, İsmayıl Səmədov, Valeh Bədəlov, Şixanur Qaflanov, Vüsal Ramazanov, Orxan Cumayev, Sayad Hacıyev, Elvin Qədirov, Rəsul Süleymanlı, Fəzail Əliyev, Elxan Ramazanov, Fəqan Məmmədov, Aydın Əhmədli, Vüsal Məmmədov, Mütəllib Serov, Zöhrab Mehdiyev, Ruslan Nəbiyev, Əhməd Putiyev, İsmayıl İrapov, Sərvan Bsyramov, Ehtiram Əhmədov, Elvin Məmmədov, Ümid Məmmədov, Şahin İsgəndərli, Musa Nuhiyev, Xəqani Murtuzəliyev, Vidadi Məmmədov, Alim Məhəmmədov, Rəvan Nurayev, Nicat Xəlilli, Natiq Mahmudov, Abakar Hacıyev, Nail Abakarov, Mahmud XudaverdiyevAbdurahman İsrafilov, Turan Əsgərov, Turan Məhərrəmov, Sərxan Ömərov, Vahid Ərəblinski, Hüseyn Xanməmmədova kitabda yer ayrılmışdır. Bu şəhidlər hər iki anaya öz sevgisini tən bölən igidlərdəndirlər. Odur ki, millətin ən böyük dəyəri olan Vətən oğulları yalnız tarix kitablarında yox, eyni zamanda Azərbaycan xalqının qəlbində, xatirələrdə yaşayırlar.

Şəhidlərimizin hər birini fərdi şəkildə cəmiyyətimizə yenidən ruhən də olsa qaytarmaq üçün dövlət başçımız Ali Baş Komandan İlham Əliyev bir çox işlər görmüş, onları yenidən yaşatmışdır. Hər yerdə şəhidlərin adını daşıyan abidələr və xatirə kompleksləri ucaldılmış, xeyli küçə, məktəb və mədəniyyət evlərinə onların adları verilmişdir.

27 Sentyabr Anım, 8 Noyabr Zəfər günü kimi artıq hər il qeyd edilir, ölkənin hər yerində tədbirlər təşkil olunur. Belə tədbirlər sırasında hər il keçirilən Xarıbülbül Festivalının öz yeri var. Axı Xarıbülbül indi hamımız üçün güllərin ən birincisidir!

Qarabağın simvolu olan bu çiçəyin gün- gündən gözəlləşməsi şəhidlərimizin qəhrəmanlığı hesabınadır. 1990- cı illərdən bəri qərənfil nahaq yerə axan qanın rəmzi olaraq şəhid məzarının üzərinə qoyulurdusa, Xarıbülbül fəxr, qürur hissinin simvolu kimi döş nişanı olaraq taxılır.

1990- cı illər Azərbaycan tarixində ağrılı və qanlı səhifə açmışdısa, bu səhifəni 30 il sonra Zəfər tarixi bağladı. Tarixin axarını dəyişdi. O illərdən bəri axan kədər göz yaşını sevinc göz yaşı əvəz etdi. İtirilən torpaqları, yarımçıq qalan xəyalları qərənfil xatırladırdısa, həmin torpaqlara yenidən qovuşmanı xarıbülbülün qoxusu ilə hiss etdik.

Şəhidlərimizə həsr edilən, onları yaşadan tədbirlərlə yanaşı, çəkilən sənədli filmlər, yazılan kitabların da rolu az deyil. Əlmaniz Ələkbərlinin yaşanmış duyğuların, hisslərin əksi olan "Zəfər tarixi yazan XTQ əsgəri" adlı kitabı da onları bir az daha yaxından tanımaq üçün xüsusi əhəmiyyətə malikdir. O igidlərin adlarını necə bilə, üzlərini necə tanıya bilərik axı?! "Zəfər tarixi yazan XTQ əsgəri" bu məsələdə bizə kömək olan kitablardandır.

Onları yaxından tanıyaq!

***Aygül ƏLİZADƏ,***
***ADPU, Filologiya fakültəsi***
***Ədəbiyyat kafedrasının müəllimi***